

# Vidadi BABANLI

Azərbaycanın ədəbi ictimaiyyətinə ağır itki üz verib. Görkəmli yazıçı, Əməkdar incəsənət xadimi Vidadi Babanlı vəfat edib.

Vidadi Yusif oğlu Babanlı 1927-ci il yanvarın 5-də Qazax rayonunun Şıxlı kəndində müəllim ailəsində doğulub. Burada orta məktəbi bitirdikdən sonra BDU-nun filologiya fakültəsində təhsil alıb (1944-1949). Bir il Sabirabad şəhər orta məktəbində müəllim işlədikdən sonra Bakıya köçüb. "Azərbaycan müəllimi" qəzetində ədəbi işçi vəzifəsində işə başlayıb. Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutuna təhsil almağa göndərilib, orada aspiranturaya daxil olsa da, səhhətinə görə Bakıya qayıtmalı olub. "Ədəbiyyat qəzeti" redaksiyasında ədəbi işçi, şöbə müdiri olub (1954-1960). Yaradıcılıqla əlaqədar Sumqayıt şəhərində fəhlə yataqxanasında tərbiyəçi işləyib, yeni əsərinə material toplayıb. "Azərbaycan" jurnalında şöbə redaktoru (1961-1968), C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının dublyaj şöbəsində baş redaktor əvəzi (1974-1976), "Yazıçı" nəşriyyatında baş redaktor müavini (1978-1981) kimi səmərəli fəaliyyət göstərib.

Bədii yaradıcılığa şeirlə başlayıb. İlk mətbu əsəri 1947-ci ildə "Azərbaycan gəncləri" qəzetində çıxan "Anam sən oldun" şeiridir. İlk şeirlərini "Vidadi Şıxlı" təxəllüsü ilə dərc etdirib. "Gəlin" povesti ilə nəsr yaradıcılığına başlayıb (1954). Həmin vaxtdan roman, povest, hekayə, oçerk, publisistik məqalə, kinossenarilər yazıb. Əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərinə çevrilib. "Aylı gecələr", "Həyat bizi sınayır", xüsusən iki kitabdan ibarət "Vicdan susanda" əsərləri yazıçıya geniş oxucu auditoriyası qazandırıb. Müstəqillik dövründə "Ana intiqamı", "Hoydu, dəlilərim, hoydu", "Kişilik haqqında himn", "Dərd məni dilləndirir", "Mənim gizlinlərim" kimi kitabları oxucuların ixtiyarına verilib. "Həyat bizi sınayır" əsəri əsasında bədii film çəkilib. "Öz evində qonaq" pyesi tamaşaya qoyulub. İspaniya, Fransa, İtaliya, Almaniya, Polşa və s. ölkələrdə keçirilən ədəbi tədbirlərdə ölkəmizi təmsil edib.

Vidadi Babanlının xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, "Azərbaycanın Əməkdar incəsənət xadimi" fəxri adına (1986), "Şərəf" ordeninə (2022), Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb (2002).

Görkəmli yazıçı, səmimi, təvazökar insan Vidadi Babanlının işıqlı xatirəsi qəlbimizdə yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**